istifadə əmsalının yüksəldilməsi və enerji itkisinin azaldılması üçün tədbirlər görür.

23. Quraşdırılmamış və ya müvəqqəti istifadə olunmayan avadanlığın düzgün saxlanılmasını təmin edir.

**III. Mexanikin hüquqları.**

24. Təmir xidməti işçilərinin seçilməsinə, onların iş yerlərinin dəyişdirilməsinə, mükafatlarındırılmasına, tənbeh və işdən azad edilməsinə dair təhsil müəssisəsinin rəhbərliyinə təkliflər verir.

25. Avadanlıqdan istifadə qaydaları pozulduqda və ondan istifadə zamanı qəza təhlükəsi yarandıqda avadanlığın istismarını dayandırır və bu barədə təcili təhsil müəssisəsinin rəhbərinə məlumat verir.

26. Avadanlıqdan düzgün istifadə məsələlərinə dair mexanikin göstərişləri təhsil müəssisəsinin istehsalat təlimi ustaları və digər istehsalat işçiləri üçün məcburidir.

Qeyd: Tədris-istehsalat avadanlığına – dəzgahlar, traktor, kombayn, avtomaşın, kənd təsərrüfatı, meliorasiya və inşaat sahələrində istifadə olunan texnika və digər maşın və mexanizmlər daxildir.



## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNİN İSTEHSALAT TƏLİMİ USTASI HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.2000-ci il marixli 403 №-li əmri ilə məsdiq edilmişdir*

**I. Ümumi müddəalar.**

1. Peşə təhsili müəssisəsinin istehsalat təlimi ustasının əsas vəzifəsi şagirdlərin peşə təlimini, vətənpərvərlik, əmək və mənəvi tərbiyəsini, istehsalat təlimi üzrə tədris plan və proqramlarının yerinə yetirilməsini təşkil etməkdən və şagirdlər üçün təhlükəsiz iş şəraiti yaratmaqdan ibarətdir.

2. İstehsalat təlimi ustası məişətdə, davranışda, nizam-intizama riayət etməkdə, əməyə münasibətdə şagirdlərə nümunə olmalı, onlara müraciətdə pedaqoji nəzarəti gözləməli, tələbkar və ədalətli olmalı, şagird şəxsiyyətinə hörmətlə yanaşmalı, onların müsbət keyfiyyətlərini aşkar edib inkişaf etdirməyi bacarmalı və şagird kontingentinin saxlanmasından ötrü tədbir görməlidir.

ABBYY PDF Transformer 3.0 Click here to buy www.ABBYY.com

3. İstehsalat təlimi ustası öz fəaliyyətində təhsil qanunvericiliyi aktlarını və tədris proqramını, şagirdlər tərəfindən yerinə yetirilən tədris istehsalat işlərinə olan texniki tələbləri, peşə məktəbi və peşə litseyinin daxili intizam qaydalarını və bu əsasnaməni rəhbər tutur.

4. İstehsalat təlimi ustası təlim-tərbiyə və qrupun istehsalat fəaliyyətini tədris-istehsalat işləri üzrə direktor müavini və baş ustanın rəhbərliyi altında həyata keçirir.

5. İstehsalat təlimi ustasına tədris qrupu bütün təlim müddəti üçün təhkim olunur.

6. İstehsalat təlimi ustasının həftəlik iş vaxtı əmək qanunvericiliyinə və təhsil qanununa uyğun müəyyən edilir. O, tədris planı və dərs cədvəlinə uyğun olaraq şagirdlərin istehsalat təlimi məşğələlərini təşkil edib keçirir. Təhkim olunmuş tədris qrupunun nəzəri məşğələləri zamanı o, məktəbin (litsey) baş ustası ilə razılaşdırılmış və tədris istehsalat işləri üzrə direktor müavini tərəfindən təsdiq olunmuş plan əsasında işləyir.

7. İstehsalat təlimi ustası müəyyən edilmiş qaydada ixtisasartırma kurslarına və istehsalatda staj keçməyə göndərilir, attestasiyadan keçirilir.

8. İstehsalat təlimi ustası baş ustanın təqdimatına əsasən direktorun əmrilə ali və ya orta ixtisas təhsilli mütəxəssislərdən və yüksək ixtisas dərəcəsi olan şəxslərdən təyin edilir.

Pedaqoji təhsili olmayan istehsalat təlimi ustaları iş-lədiyi dövrün birinci ili ərzində pedaqogikanın əsasları, psi-xologiya və tədris metodikası üzrə zaçot verir.

9. Kadrların hazırlanmasında və onların tərbiyəsində əldə etdiyi nailiyyətlərə görə istehsalat təlimi ustası müəyyən edilmiş qaydada mükafatlandırıla bilər.

**II.İstehsalat təlimi ustasının vəzifələri.**

İstehsalat təlimi ustası:



10. Şagirdlərdə öyrənilən peşə üzrə ixtisas xasiyyətnaməsinin tələblərinə uyğun ixtisas bilikləri, bacarıqları və vərdişlərini formalaşdırır, onlara tədris istehsalat işlərinin səmərəli üsullarla yerinə yetirilməsinin əsaslarını öyrədir.

11. İstehsalat təliminin planlaşdırılması üzrə sənədləri tərtib edir, tədris istehsalat işlərinin siyahısına uyğun işlər seçir.

12. Şagirdlərin iş yerlərini tədris proqramının, təhlükəsizlik texnikasının, istehsalat sanitariyasının və texniki estetikanın tələblərinə uyğun avadanlıqlar, alətlər, texno-loji-təlimatı xəritələr və tədris istehsalat işləri ilə təchiz olunmasını təmin edir.

13. Təhlükəsizlik texnikasının tələblərinə və yanğına qarşı aparılan tədbirlərə uyğun olaraq şagirdlərin müxtəlif əmək vərdişlərinə yiyələnmələri üçün təlimat keçir.

14. İstehsalat təlimi məşğələlərində şagirdlərin yerinə yetirdikləri tapşırıq və işləri qəbul edir, onların keyfiyyətini qiymətləndirir, hazır məhsulu texniki nəzarət işçisinə və ya baş ustaya təhvil verir.

15. Şagirdlərin müvəffəqiyyətlərinə və dərsə davamiyyətinə nəzarət edir.

16. Baş ustanın rəhbərliyi ilə qrup şagirdlərinin buraxılışqabağı istehsalat təcrübəsinin proqramını hazırlayır.

17. Tədris proqramına uyğun olaraq, təhkim olunduğu qrupun şagirdləri üçün tədris-istehsalat işləri və iş yerləri seçir, yeni avadanlıq və texnoloji proseslərlə, şagirdlərin istehsalat təcrübəsi keçəcək müəssisə və təşkilatlar ilə müqavilələrin bağlanmasında iştirak edir.

18. Qrupdakı şagirdlərin tədris istehsalat işlərinin uçotunu aparır, onların istehsalat təcrübəsi gündəliklərinin doldurulmasına, hesabatların yığılmasına, qazandıqları pul vəsaitinin təhsil müəssisəsinin hesabına köçürülməsinə və onlara çatmalı olan haqqın vaxtında verilməsinə nəzarət edir.



ABBYY PDF Transformer 3.0 Click here to buy www.ABBYY.com

19. Şagirdlərin dövlət buraxılış imtahanlarını hazırlayır və imtahanlarda iştirak edir.

20. Tədris qrupunun sinif rəhbəri ilə birlikdə şagirdlərin fərdi xüsusiyyətlərini öyrənir, onlarda seçdikləri peşəyə, öyrəndikləri fənlərə maraq aşılayır, vətənə məhəbbət və əməyə şüurlu münasibət tərbiyə edir.

21. Şagirdlərin idrak fəaliyyətini, təhsildə və işdə müstəqilliyini inkişaf etdirir, onları müsabiqələrə, olimpiadalara, bədii və texniki yaradıcılıq dərnəklərinə, ixtiraçılığa və səmərələşdiriciliyə, idman bölmələrinin işinə cəlb edir.

22. Şagirdlərin sağlamlığı, tibbi-sanitariya xidməti və yay istirahətinin təşkilinin qayğısına qalır, onların valideynləri ilə müntəzəm əlaqə saxlayır.

23. Müntəzəm olaraq özünün ixtisas və pedaqoji səviyyəsini yüksəldir, pedaqoji təcrübəni, elm və texnikanın nailiyyətlərini, bazar iqtisadiyyatının xüsusiyyətlərini öyrə-nir və onlardan tədris prosesində istifadə edir.

Təhsil müəssisəsinin pedaqoji şurasının və metodiki komissiyanın işində iştirak edir. Gənclər arasında peşə yönümü və şagird qəbulu sahəsində iş aparır.

### III. İstehsalat təlimi ustasının hüquqları.

24. Şagirdlərin təlim və tərbiyəsi vəziyyətinin yaxşılaşdırılması məsələləri ilə əlaqədar təhsil müəssisəsinin pedaqoji şurasına və rəhbərliyə təkliflər verir.

25. İstehsalat təlimi məşğələlərinin yüksək keyfiyyətini təmin etməkdən ötrü tədris qrupunun yeni texnika, alət, materiallar, texnoloji və tədris metodiki sənədlərlə və digər lazımi vasitələrlə təchiz olunmasına təşəbbüs göstərir.

26. Şagirdləri nasaz avadanlıq, alət, ləvazimat, cihazlar və texniki tələblərə cavab verməyən materiallarla işləməyə buraxmır. Bu barədə rəhbərliyə məlumat verir.



27. Təhsil müəssisəsinin rəhbərliyi qarşısında şagirdlərin rəğbətləndirilməsi və ya cəzalandırılması məsələsini qaldırır.

## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNİN FİLİALI HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.2000-ci il marixli 403 №-li əmri ilə məsdiq edilmişdir*

### I. Ümumi müddəalar.

1. Peşə məktəbi və peşə litseyinin filialı həmin təhsil müəssisəsinin struktur bölməsi olub, yerləşdiyi bölgənin iqtisadiyyatının inkişafı istiqamətlərinə müvafiq olaraq dövlət və qeyri-dövlət müəssisələrinin kadrlara olan ehtiyacını ödəmək məqsədilə "Peşə məktəbi və peşə litseyinin nümunəvi əsasnaməsi"nə uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə yaradılır, yenidən təşkil olunur və ləğv edilir.

2. Filialın yaradılmasında aşağıdakı tələblər nəzərə alınır:

-filial peşə məktəbi və peşə litseyindən uzaq məsafədə yerləşən yaşayış məntəqəsində, şagirdlərin sayı 60 nəfər və ondan çox olduqda.

3. Peşə məktəbi və peşə litseyinin filialı Təhsil haqqında Azərbaycan Respublikası Qanununa, peşə məktəbi